*Respublikamızın elmi ictimaiyyəti görkəmli Azərbaycan alimi, əməkdar elm xadimi, biologiya elmləri doktoru, Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Siddiqə Məmmədovanın 100 illik yubileyini böyük təntənə ilə qeyd etdi.*



# GÖRKƏMLİ ALİM, TANINMIŞ İCTİMAİ XADİM

Siddiqə Rza qızı Məmmədova 1925-ci il mart ayının 8-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şəhriyar kəndində anadan olmuşdur. Qədim Naxçıvanın Şəhriyar kəndində dünyaya göz açan bu çəlimsiz qızcığaz öz qabiliyyəti, istedadı və mübarizliyi ilə tarixin keşməkeşli, ziddiyyətli dövrlərinin ağır sınaqlarından bacarıqla keçərək görkəmli alim, tanınmış ictimai xadim kimi ad-san qazanmışdır. Akademik Siddiqə xanımdan özü haqqında, keçdiyi şərəfli həyat yolu haqqında soruşanda deyərdi: "atam, anam həmişə tövsiyə edərdilər ki, sən torpağa məhəbbətlə əyil, o da səni məhəbbətlə qaldıracaq, ucaldacaq, el içində üzünü ağ edəcəkdir. Təki ona vəfalı ol, dərdini öyrən, dərdinə çarə et".

Kəndin bərəkətli torpağı, barlı bağları, tükənməz sərvəti, ulu təbiətin heç nəyi əsirgəməyən gözəlliyi uşaqlıqdan ona təbiətə vurğunluğu öyrətmiş, təbiət elminə marağı get-gedə qəlbinin mənəvi ehtiyac və tələbatına çevrilmişdi. Bir ağacın vaxtsız quruduğunu, dəniz kimi dalğalanan taxıl zəmilərinin məhv olduğunu gördükdə ürəyində misgilli suallar baş qaldırardı. Elə torpağa, təbiətə bağlılıq onun gələcək peşə yönümünə zəmin yaratdı və günlərin birində aqronom olmaq istəyini valideynlərinə bildirdi. Əvvəlcə qızın bu istəyinə əhəmiyyət vermədilər. Lakin qətiyyəti, gələcək həyat yolu ilə bağlı arzuları valideynləri razı saldı.

Kirovabad Kənd Təsərrüfatı Texnikumunda orta ixtisas təhsilini baş vurduqdan sonra ali təhsil almaq arzusu onu Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) aqronomluq fakültəsinə gətirir, qəbul olur və təhsil müddətində çalışqanlığı, təhsildə qazandığı uğurlar ali məktəb rəhbərliyinin diqqətini cəlb edir. Adlı təqaüdə layiq görülür və institutu fərqlənmə diplomu ilə bitirir. Təhsil illərində qazandığı uğurlara, elmi tədqiqat işlərinə marağına görə entomologiya və fitopatologiya kafedrasının baş laborantı vəzifəsinə təyin edilir. Gənc əməkdaş kimi Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda bilik xəzinəsi, elm fədailəri adlandırılan Əliqulu Nərimanov, Bala Ağayev, Validə Tutayuk kimi görkəmli alimlərdən dərs alır, onların köməkliyi ilə elmin əsaslarına dərindən yiyələnir.

1948-ci ildən Azərbaycan Kənd Təsərrüfatı İnstitunun entorologiya ixtisası üzrə aspirantı olur və 1952-ci ildə "Azərbaycanda toxumluq yoncanın zərərvericiləri və onlara qarşı mübarizə tədbirləri" mövzusunda namizədlik dissertasiyasını qonşu Gürcüstanda Bitki Mühafizə Elmi-Tədqiqat İnstitutunda müdafiə edir və kənd təsərrüfatı elmləri namizədi elmi dərəcəsini alır.

Siddiqə Məmmədova geniş profilli entomoloqdur. Onun elmi əsərləri bitki mühafizəsinin müxtəlif sahələrini əhatə edir. Entomologiya sahəsində çoxlu elmi əsərlərin müəllifidir. Bütün bunlara görə 1956-cı ildə dossent elmi adını alır və 1963-cü ilə qədər Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda assistent, dossent vəzifələrində çalışır. Gənc alimə yüksək etimad göstərilir və 1963-cü ildə Azərbaycan Elmi-Tədqiqat Bitki Mühafizə İnstitutuna direktor təyin edilir. Direktor kimi ciddi fəaliyyəti, özünə və ətrafındakılara qarşı tələbkarlığı elmi ictimaiyyətin diqqətini cəlb edir, respublikada bitki mühafizəsi ilə bağlı dövlət əhəmiyyətli bütün tədbirlərdə çıxışlar və məruzələr edir. Bütün bu nailiyyətlər yüksək qiymətləndirilir və 1966-cı ildə "Şərəf nişanı" ordeni ilə təltif edilir.

Akademik Siddiqə Məmmədovanın elmi tədqiqatlarının əsasını çoxillik otların, meyvə, subtropik və meşə ağaclarının zərərvericilərinin növ tərkibinin meydana çıxarılması, zərərli canlıların biosenozunun formalaşması, zoocoğrafi paylanması qanunauyğunluqlarını müəyyənləşdirmək təşkil etmişdir. Bütün bu tədqiqatlar Siddiqə xanım tərəfindən doktorluq dissertasiyasının müdafiə edilməsi ilə nəticələnmişdir. 1971-ci ildə Siddiqə Məmmədova Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) "Azərbaycanda çay və sitrus bitkilərinin zərərvericiləri və onlara qarşı mübarizə tədbirləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, biologiya elmləri doktoru elmi dərəcəsi almışdır. Həmin ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

1971-ci ildə ümummilli lider Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin olunandan sonra respublikada aqrar sahənin prioritet elan edilməsi, pambıqçılıq, üzümçülük, tərəvəzçilik və s. sahələrin inkişaf etdirilməsi ilə başlayan qlobal işlərdə akademik Siddiqə Məmmədova və onun rəhbərlik etdiyi Elmi-Tədqiqat Bitki Mühafizə İnsitutu da yaxından iştirak etmişdir. Onun rəhbərliyi altında institutun 6 şöbəsi, Abşeron və Xaçmaz stansiyaları, Ucar və Saatlı dayaq məntəqələri fəaliyyətə başlamışdır. Onun rəhbərliyi və təşəbbüskarlığı ilə Azərbaycan Elmi Tədqiqat Bitki Mühafizə İnstitutu respublikada bitki mühafizəsi və tətbiqi zoologiya sahəsində aparılan elmi tədqiqat işlərinin əsas istiqamətverici mərkəzinə çevrilmişdir.

Gərgin elmi axtarışlar və təşkilatçılıq fəaliyyəti yüksək qiymətləndirilmiş və S.Məmmədova 1972-1988-ci illərdə Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının Zaqafqaziya bölməsinin prezidiumunun üzvi və bitki mühafizəsi seksiyasının sədri olmuşdur. Aparılan elmi-tədqiqat işləri, sahə üzrə yazılan kitablar, dərsliklər və tədris vəsaitlərinin əhəmiyyəti nəzərə alınaraq ona 1973-cü ildə professor elmi adı verilmişdir. 1975-ci ildə "Zərərverici, xəstəlik və alaq otlarından mühafizəsi üzrə problem" Şurasının sədri təyin olunur və həmin ildə Moskvada keçirilən bitki mühafizə üzrə konqresin "Böyük medal"ına layiq görülür, "Əməkdə igidliyə görə" medalı ilə təltif edilir.

Azərbaycanın kənd təsərrüfatı sahəsi Heydər Əliyevin rəhbərliyi ilə yeni nailiyyətlər qazanır, pambıq, üzüm, meyvə-tərəvəz istehsalı yüksəlir, heyvandarlıqda xırda və iribuynuzlu mal-qaranın sayı artır, quşçuluqda irəli addımlar atılır. S.Məmmədova və onun rəhbərlik etdiyi ET Bitki Mühafizə İnstitutu da kənd təsərrüfatı sahəsində istehsalın artmasında, respublikada bitki mühafizə işlərinin dövrün tələblərinə uyğun aparılmasında fəal iştirak edir, ətraf mühit üçün təhlükəli hesab edilən pestisidlərin tətbiqi bioloji üsulun tətbiqinin genişləndirilməsi hesabına azaldılır, davamlı, torpaqda uzun müddət qeyri-toksiki məhsullara parçalanmayan pestisidlərin tətbiqi tamamilə məhdudlaşdırılır. Bütün bunlara görə S.Məmmədova 2-ci dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilir.

1981-ci ildə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə S.Məmmədovaya "Əməkdar elm xadimi" fəxri adı verilir. İstedadlı alim, instituta rəhbərliklə yanaşı, elmi axtarışlarını da uğurla davam etdirir. 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilir.

Dünya miqyasında elmin inkişafında zaman faktoru həmişə mühüm amillərdən biri olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə elm adamlarına daim qayğı göstərir, onları diqqətdə saxlayırdı. Heç təsadüfi deyildir ki, bu diqqətəlayiq elm adamlarından biri də Siddiqə Rza qızı Məmmədova idi və o, 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müvafiq Fərmanına əsasən "Şöhrət" ordeni ilə təltif edilmiş, 2010-cu ildə "Şərəf" ordeninə, daha sonra isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na da layiq görülmüşdür.

S.Məmmədova böyük elm adamıdır, bitki mühafizəsi, o cümlədən entomologiya sahəsində 205-dən artıq elmi əsərin, 5 tədris vəsaitinin, 3 monoqrafiyanın, 7 ixtiranın, 2 pestisidlər katoloqunun müəllifidir. Bitki mühafizəsi üzrə yüksəkixtisaslı kadrların hazırlanması işi də daim alimin diqqət mərkəzində olmuş, onun rəhbərliyi ilə institutda 5 elmlər doktoru, 70-dən çox elmlər namizədi hazırlanmışdır. 2 elmlər doktorunun və 15 elmlər namizədinin rəhbəri və ya elmi məsləhətçisi olmuşdur.

Akademik Siddiqə xanım görkəmli alim, böyük ictimai xadim olmaqla yanaşı, özünəməxsus yüksək şəxsi keyfiyyətləri ilə seçilən nadir insan, ədalətli və humanist, dürüst, qürurlu və sözübütöv elm adamı idi. 1990-cı illərin əvvəllərində respublikada hərc-mərclik hökm sürəndə bir sıra alimlərə olan ədalətsizlik ona qarşı da çevrilmişdi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə hər şey dəyişdi, haqq-ədalət qalib gəldi, hamı layiq olduğu yerini tutdu.

Siddiqə xanım Məmmədova həm də gözəl ailə başçısı idi, həyat yoldaşı biologiya elmləri doktoru, professor Bəhman Bəhram oğlu Xəlilovla birgə 2 oğul və bir qız böyütmüşdü.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru, biologiya elmlər doktoru, professor Siddiqə Rza qızı Məmmədova 2017-ci il avqustun 5-də ömrünün 93-cü ilində vəfat etmiş, Gəncədə Fəxri Xiyabanda dəfn edilmişdir.

Akademik Siddiqə Rza qızı Məmmədovanın vəfatı ilə əlaqədar Prezident İlham Əliyev nekroloq imzalamışdır.

**İbrahim CƏFƏROV,**
**Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru,**
**AMEA-nın müxbir üzvü,**
**kənd təsərrüfatı elmləri doktoru,**
**professor.**